# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır

## Qəbələ məktəbliləri qərb bölgəsinə səfər etmişlər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün təşkil olunan "Ölkəmizi tanıyaq" tur-aksiya layihəsi çərçivəsində martın 23-də Qəbələ məktəblilərinin Gəncə şəhərinə, Şəmkir və Göygöl rayonlarına yola salınması mərasimi olub.*






Heydər Əliyev parkında təşkil olunan yolasalma mərasimində çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova ölkə rəhbərinin tapşırığına əsasən təşkil olunan aksiyanın əhəmiyyətindən söz açıb. Qeyd olunub ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar da məhz bu amala xidmət edir.

Mərasimdə rayon təhsil şöbəsi müdirinin müavini Yaşar Nəzirov çıxış edərək diqqətə çatdırıb ki, layihənin həyata keçirilməsi ölkə gənclərinin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunması, məktəblilərin dünyagörüşünün daha da zənginləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Toplantıda Zarağan kənd 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Dünya Rəsulzadə çıxış edərək indiyədək respublikamızın bir çox bölgəsində olduğunu bildirib. "Bu tur-aksiyada isə şagird dostlarımla birgə ilk dəfədir ki, Gəncə şəhərinin, Şəmkir və Göygöl rayonlarının təbiəti, görməli yerləri ilə tanış olacağam. Səfər zamanı ölkəmizin tarixi, adət-ənənələri, inkişafı barədə zəngin məlumatlar toplayacağıq".

Daha sonra 40 nəfər tur-aksiya iştirakçısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər güllər düzüblər. Maarifləndirici tur aksiyanın təşkil olunması üçün rayon icra hakimiyyəti tərəfindən qərargah yaradılıb. Rayon icra hakimiyyətinin məsul işçisi Zahir Kərimov qrupa rəhbər təyin olunub, şagirdlərə xüsusi geyimlər paylanılıb. Yolasalma mərasimində iştirak edən valideynlər və məktəblilər ölkə başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Sonda tur-aksiyada iştirak edən şagirdlər musiqi sədaları altında onlar üçün ayrılmış xüsusi avtobusla Gəncə istiqamətinə yola düşüblər.

**«Qəbələ».**

## Qəbələnin tur-aksiya iştirakçılarında yaratdığı xoş təəssüratlar

***Göyçay şəhər 9 nömrəli orta məktəbin 10-cu sinif şagirdi Nihad Xəlilov:***



—Gündən-günə gözəlləşən respublikamız artıq inkişaf etmiş ölkələrlə rəqabət aparır. Demək olar ki, hər gün müxtəlif yeniliklərin şahidi oluruq. Dövlətimizin başçısı gənc nəslin yaxşı təhsil alması və dünyagörüşünün artması istiqamətində çox böyük işlər görür. Bu gün biz ölkəmizin inkişafını Qəbələnin timsalında aydın görə bilirik. Qəbələnin təbiəti də çox rəngarəngdir. Buranın füsunkar təbiəti bizi valeh edib.

Ekskursiyanın ilk günündə Qəbələ rayonunun görməli yerləri ilə tanış olduq. Azərbaycanı gənc nəslə daha yaxından tanıtmaq üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya hər il uğurla reallaşdırılır. Bu aksiya zamanı bizim dünya görüşümüz artır, maddi-mədəniyyət nümunələri, tarixi abidələr, istehsal müəssisələri, adət-ənənələrimizlə, turizm obyektləri ilə yaxından tanış oluruq, kitablardan oxuduğumuz və sənədli filmlərdə gördüyümüz yerləri əyani şəkildə görürük.

* * *

***Şagirdlərin Qəbələyə heyranlıqlarını Göygöl məktəblisi Fərid Zalov belə ifadə etmişdir:***



—Sürətlə inkişaf edən Azərbaycanın qazandığı uğurlar biz məktəbliləri də ürəkdən sevindirir. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu tur-aksiya çərçivəsində Qəbələnin müasir simasının şahidi oluruq. Hər yerdə tikinti-quruculuq işləri gedir. Bu gözəllikləri gördükcə doğma Vətənimizə daha da ürəkdən bağlanırıq.

Mən burada yaşıllaşdırma aksiyasında fəal iştirak etdim. Yaşadığım rayona qayıdanda sinif yoldaşlarıma Qəbələdə gördüklərim barədə danışacağam, onlara çəkdirdiyim şəkilləri göstərəcəyəm. Qəbələnin əsrarəngiz gözəlliyi var. Bu rayon həm qədimliyi, həm də müasirliyi ilə seçilir. İstərdim ki, ailəmizlə birgə yenə bu rayona gəlim.

* * *

***Göyçay şəhər 1 nömrəli orta məktəbin 10-cu sinif şagirdi Gülarə Əliyeva:***



—Azərbaycanın gözəl təbiətə, qədim tarixə və zəngin ehtiyatlara malik olması barədə məlumatım var idi. Bu barədə müəllimlərimizdən də ətraflı məlumat almışdıq. Həmişə istəyirdim ki, ölkəmizin bölgələrinə səfər edərək rayonlarımız barədə oxuduqlarımı və eşitdiklərimi gözlərimlə görüm. "Ölkəmizi tanıyaq" layihəsi bu baxımdan mənim üçün əla fürsət oldu. Qəbələ, Şəki və Zaqatalanı yaxından tanımaq imkanı qazandım.

Qəbələ ilə tanışlığın onda zəngin təəssürat yaratdığını bildirən Göyçay məktəblisi qeyd edib ki, Azərbaycanda yeniyetmə və gənclərin yaxşı təhsil alması ilə yanaşı, onların ölkəmizi hərtərəfli tanımaları üçün dövlətimiz hər cür imkanlar yaradır:

—Mən bu tur-aksiyanın əhəmiyyətini olduqca yüksək qiymətləndirirəm. Rayonlara səfərlər zamanı bizə istirahətimizin mənalı təşkili, əylənməyimiz və maariflənməyimiz üçün lazımi şərait yaradılır.

Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə, "Beltmann" piano fabrikinə, eləcə də rayonun digər tarixi yerlərinə səfəri səbirsizliklə gözləyirdim. Bu, təkcə mənim deyil, həm də tur-aksiyada iştirak edən hər bir məktəblinin arzusu idi. Nəhayət ki, bu istəyim gerçəkləşdi. Qəbələdə kanatla dağ gəzintisi bizə unudulmaz anlar yaşatdı. Dağların zirvəsindən Qəbələ şəhərini, çayları, meşələri, gözəl mənzərəni seyr etdim, dostlarımla xatirə şəkili çəkdirdim".

* * *

***Ağstafa rayonu Kol Xəlifəli kənd orta məktəbinin X sinif şagirdi Katya Vəliyeva:***



—Qəbələ mənə xoş təəssürat bağışladı. Biz burada keçirilən yaşıllaşdırma aksiyasında fəal iştirak etdik, rayonun keçmişi və bu günü barədə zəngin məlumat aldıq.

Ekskursiyanın məktəblilərin dünyagörüşünün zənginləşməsinə müsbət təsir göstərdiyini vurğulayan Katya Vəliyeva onlara belə şərait yaratdığına görə şagird dostları adından dövlətimizin başçısına minnətdarlığını bildirərək deyib:—Prezidentimizin təşəbbüsü ilə reallaşan bu layihə biz məktəblilərə Azərbaycanın bölgələri ilə yaxından tanış olmaq fürsəti yaradıb. Bu baxımdan, tur-aksiyanın əhəmiyyəti olduqca böyükdür. Həm bölgələrimizin inkişafını əyani görür, biliyimizi artırır, yeni məlumatlar əldə edir, həm də dincəlirik.

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaya Ağstafa rayonundan qoşulmuşam. Bu ekskursiya şəxsən mənim həyatımda böyük hadisədir və tur-aksiyadan aldığım xoş təəssürat heç vaxt yaddaşımdan silinməyəcək. Çünki bölgələrimizə səfər etmək hər deyəndə mümkün olmur. Mən bu tur-aksiyada maariflənməklə yanaşı, yeni dostlar da qazanıram və mənalı istirahət edirəm.

* * *

***Göyçay şəhər 3 nömrəli orta məktəbin 9-cu sinif şagirdi Mədinə Babayeva:***



—Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində bu gözəl yerləri görməyin ona da qismət olduğunu vurğulayaraq deyib: "Qəbələ mənə xoş təəssürat bağışladı. Mən burada yaşıllaşdırma aksiyasında fəal iştirak etdim. Rayonumuza qayıdanda sinif yoldaşlarıma Qəbələdə gördüklərim barədə danışacam, onlara çəkdirdiyim şəkilləri göstərəcəm. Qəbələnin tam başqa cür əsrarəngiz gözəlliyi var. Qəbələ həm qədim, həm də müasir şəhərdir. İstərdim ki, ailəmizlə birgə yenə bu rayona gəlim. Mən Qəbələnin bu qədər gözəl olduğunu bilmirdim. Qəbələ barədə çox eşitmişdim və buradakı "Tufandağ" Qış-Yay İstirahət Kompleksi, "Beltmann" piano fabriki və qədim Qəbələ şəhərinin ərazisi, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi ən çox görmək istədiyim yerlər idi.

Biz sabah Qəbələdən Şəkiyə yola düşəcəyik. Şəkiyə ilk dəfə səfər edəcəm. Ümid edirəm ki, Şəkidən də xoş təəssüratla ayrılacam.

**«Qəbələ».**